# QAFQAZ KUSTAR KOMİTƏSİTƏSİNİN (QKK) FƏALİYYƏTİNDƏ AZƏRBAYCANDA XALÇAÇILIQ MƏSƏLƏLƏRİ

**Camal Mustafaye**
*ADNSU, t.e.d., professor,*
*“Humanitar fənlər”*
*kafedrasının müdiri*
*mustafayev1954@list.ru*

**CARPET-MAKING ISSUES IN AZERBAIJAN IN THE ACTIVITY OF THE CAUCASIAN CUSTRAL COMMITTEE (CCC)**

**Jamal Mustafaye**

**Summary**

Although the history of Azerbaijan carpet weaving is considered about thousands of years, until the end of the XIX century, its history was almost never been the object of systematic scientific research either on the scale of the entire country or individual regions. As the demand for Azerbaijan carpet has increased in the end of XIX and the beginning of XX centuryin world market, tsarist Russia had to pay attention to this field and made the Caucasian Cottage Crafts Committee in 1899, thats main purpose was to study the position of the art of carpet weaving. In the first years of its activity, the Committee, working with a very small budget, conducted research in 195 villages engaged in carpet weaving in 11 regions of the South Caucasus for several years, has gathered valuable information about the raw material base, distribution area, workforce, painting, features of the using tools, range of carpet products, selling price and many other issues.

**Key words:** Azerbaijan, Caucasian Cottage Crafts Committee, Guba district, carpet weaving, raw materials, hana, carpet trade

**QAFQAZ KUSTAR KOMİTƏSİTƏSİNİN (QKK) FƏALİYYƏTİNDƏ AZƏRBAYCANDA XALÇAÇILIQ MƏSƏLƏLƏRİ**

**Camal Mustafaye**

**Xülasə**

Azərbaycan xalçaçılıq sənətinin tarixi minilliklərlə ölçülsə də XIX əsrin sonlarına qədər onun tarixi nə bütöv ölkə, nə də ayrı-ayrı bölgələr miqyasında, demək olarki, heç vaxt sistemli elmi araşdırılma obyekti olmamışdır Yalnız XIX əsrin sonu-XX əsrin əvvəllərində dünya bazarında Azərbaycan xalçalarına tələbatın artması ilə əlaqədar çar Rusiyası bu sahəyə diqqət verməyə məcbur olmuş və 1899-cu ildə əsas məqsədi xalçaçılıq sənətinin vəziyyətini öyrənmək olan Qafqaz Kustar Komitəsini yaratmışdı. Fəaliyyətinin ilk illərində çox kiçik büdcə ilə çalışan Komitə cəmisi bir neçə il ərzində Cənubi Qafqazın 11 qəzasının xalçaçılıqla məşğul olan 195 kəndində araşdırmalar aparmış, ilk dəfə olaraq bu sənətin xammal bazası, yayılma arealı, işçi qüvvəsi, boyaqçılıq, istifadə edilən əmək alətlərinin xüsusiyyətləri, istehsal edilən xalça məmulatlarının çeşidi, satış qiyməti və bir çox məsələlər haqqında olduqca qiymətli məlumat toplamışdır.

**Açar sözlər:** Azərbaycan, Qafqaz Kustar Komitəsi, Quba qəzası,xalçaçılıq, xammal, hana, xalça ticarəti

**Giriş.** Tarixi minilliklərlə ölçülən xalçaçılıq sənəti XIX əsrin son onilliklərindən başlayaraq Azərbaycanda öz inkişafının yeni, ən yüksək inkişaf mərhələsinə qədəm qoydu. Rusyada və Avropa ölkələrində xalça məmulatına tələbatın kəskin şəkildə artması xalçaçılıq sənətinin keyfiyyətcə yeni mərhələyə keçməsinə ciddi təkan verdi. Uzun müddət başlıca məqsədi istehsalçının tələbatının ödənilməsi olan və daha çox ev peşəsi səciyyəsi daşıyan bu sənət yuxarıda göstərilən səbəblər nəticəsində daha çox bazar üçün məhsul istehsalına yönəlmiş kustar sənət səviyyəsinə yüksəldi. Xalçaçılığın olduqca gəlirli bir sahəyə çevrilməsi bu işlə məşğul olanların sıralarının sürətlə artmasına gətirib çıxarırdı. XIX əsrin sonu-XX əsrin əvvəllərində Cənubi Qafqazda xalçaçılığın inkişaf vəziyyətinə və yayılma arealının tədqiqinə həsr olunmuş məlumatlardan aydın olur ki, bu

dövrdə Azərbaycanda xalça məmulatı istehsalı ilə məşğul olmayan evə, ailəyə nadir hallarda rast gəlmək olardı.

XIX əsrin sonlarında hökumətin tapşırığı ilə sənət istehsalının müxtəlif sahələrinin, ilk növbədə isə xalçaçılığın vəziyyəti haqqında K.И.Xatisovun[12], Я.Zedgenidzenin[7] və digərlərinin tədqiqatları Rusiya hakimiyyətində bu sənət sahəsinin o dövrdəki vəziyyəti və onun inkişaf perspektivləri haqqında aydın təsəvvür yaradırdı. Bütün müəlliflər xalçaçılıqda əldə olunan nailiyyətləri qeyd etməklə yanaşı, onun inkişafına mane olan səbəbləri müəyyənləşdirməyə çalışmış və onları aradan qaldırmaq üçün hökumət qarşısında konkret təkliflərlə çıxış etmişdilər. Bütün bunlar Rusiya hökuməti tərəfindən Cənubi Qafqazda yayılmış kustar sənət sahələrinin, o cümlədən xalçaçılığın inkişafına yardım göstərməli olan “Qafqaz Kustar Komitəsi” adlı xüsusi qurumun yaradılması haqqında qərar qəbul edilməsi ilə nəticələndi.

Qafqaz Kustar Komitəsinin yaradılması haqqında 1899-cu il oktyabrın 23-də qəbul edilmiş yekun qərarda göstərilirdi ki, Komitə Əkinçilik və Dövlət Əmlakı nazirliyinin Kənd iqtisadiyyatı Kənd təsərrüfatı statistikası şöbəsinin nəzdində 4 min rublluq illik büdcə ilə 3 illik sınaq müddətinə Tiflisdə yaradılır[1,v.133]. Komitənin təsis olunmasına həsr edilmiş bu yığıncaqda həm də onun qarşısında qoyulan vəzifələri müəyyənləşdirmək və fəaliyyətini tənzimləmək üçün nəzərdə tutulan 9 bənddən ibarət Qaydalar təsdiq edildi. Qaydalara əsasən Komitənin qarşısında Cənubi Qafqazda kustar sənayenin vəziyyətini tədqiq etmək və ən əsas ehtiyaclarını müəyyənləşdirmək, kustarları istehsal texnikasının daha təkmil üsulları ilə tanış etmək, kustarlara daha əlverişli şərtlərlə xammal və əmək alətləri əldə etməkdə, hazır məhsulun satışında və digər məsələlərdə yardım göstərmək kimi vəzifələr qoyulmuşdu[11,s724]. Komitə qarşıya qoyulmuş bu vəzifələri yerinə yetirmək üçün öz əməkdaşlarını kustar sənayenin vəziyyətini və ehtiyaclarını öyrənmək məqsədilə yerlərə ezam etməli, kustar sənayenin əsas sahələri üzrə təlimatçı-texniklər hazırlamalı, bəzi sənət sahələrində çalışan kustarları daha təkmil üsullara alışdırmaq üçün daimi emalatxanaların təşkili qayğısına qalmalı, kustarların daha təkmil alət və vasitələr əldə etmələrində vasitəçi olmalı, rus və yerli dillərdə məsləhətlər çap etdirməli, yerli kustar məmulatları nümayiş etdirmək, saxlamaq və satmaq üçün sərgilər, ambarlar və bazarlar təşkil etməli idi[11,s.724-725]. Lakin bütün bu işlərin görülməsi üçün ayrılmış cəmi 4 min rublluq vəsait çox az olduğundan Komitə üzvləri əsas diqqəti daha çox gəlir gətirən xalçaçılıq sənətinin vəziyyətinin öyrənilməsinə yönəltdilər.

Fəaliyyətinin ilk dövrlərində özünü aydın göstərən maliyyə sıxıntılarının nəticəsi idi ki, Komitə 1899-cu il dekabrın 31-də təsis edilsə də, yalnız 1901-ci ilin ikinci yarısında fəaliyyətə başlaya bildi[10,s.113]. QKK Azərbaycanda xalçaçılıq sənətinin inkişafına yardımı bu sənətin daha yüksək inkişaf səviyyəsinə çatdığı və geniş yayıldığı bölgələrdən başlamaq qərarına gəldi. Komitənin 1900-cü ildə qəbul etdiyi qərara əsasən Quba, Şuşa və Zəngəzur kimi əsas xalçaçılıq bölgələrinə göndərilməsi nəzərdə tutulan ekspedisiyalar qarşısında bu sənətin yayılma arealını, işçi qüvvəsinin sayını, istehsal prosesində istifadə edilən əmək alətlərinin məhsuldarlığını, xalçaçıların xammalla təchizatındakı vəziyyəti, hazır xalça məmulatının maya dəyəri və satış qiyməti, xalça ticarəti, xalçaçılğın kəndli təsərrüfatındakı mövqeyi kimi mühüm məsələləri aydınlaşdırmaq vəzifəsi qoyulmuşdu[3,v.185].

Komitə tərəfindən xalçaçılıq sənətinin öyrənilməsi işinə bu sənətin bütün Cənubi Qafqazda daha yüksək inkişaf səviyyəsinə çatdığı Bakı quberniyasının Quba qəzasından başlanıldı. 1901-ci ildə Komitənin ən fəal üzvlərindən olan M.Kara Murzanın rəhbərlik etdiyi ekspedisiya qısa müddət ərzində qəzanın 27 kəndində tədqiqat işləri apardı və xalçaçılığın vəziyyəti haqqında mükəmməl bir hesabat hazırladı[8,s.48; 9,s.23]. Tədiqat zamanı müəyyənləşdirildi ki, qəzanın hətta ən kiçik kəndlərində belə xalça məmulatı istehsal edilsə də bu sənət əkinçilik və bağçılıq üçün yarasız olan dağlıq və dağətəyi zonalarda daha çox inkişf etmişdir. Həmin məlumatlardan aydın olur ki, Quba qəzasının xalçaçılıqla məşğul imkanı olan kəndlərində 4097 təsərrüfat qeydə alınsa da onlardan yalnız 1479 ailə (36,1 faiz) xammalla normal şəkildə təmin olunmaq imkanına malikdir. Qəzada bütünlüklə qadın əməyinə əsaslanan xalçaçılıqla 4178 məfər məşğul olurdu ki, onların da 699 nəfərini yeniyetmə qızlar təşkil edirdi. Qışda gündə 6 saat, yazda və yayda 9-10 saat çalışan xalçaçıların gündəlik əmək haqqı 5-10 qəpik təşkil edirdi[8,s.24].

Hesabatda xalçaçılıq sənətinin əsas xammal bazasını təşkil edən yunla təminat məsələsi haqqında da maraqlı məlumat verilərək göstərilir ki, qəzada çalışan xalçaçıların yuna ehtiyaclarının ödənilməsində ciddi problemlər mövcuddur. Qəzanın bütün kəndlərində əhalinin əksəriyyətinin xalça toxumağı bacarmasına baxmayaraq yun əldə etməyin çətinliyi onların çoxunu bu işlə məşğul olmaq imkanından məhrum edirdi. Elə bunun nəticəsi idi ki, qəzada xalça toxumağı bacaran əhalinin cəmisi 35,7 faizi bu işlə məşğul ola bilirdi. Yun almaq üçün ayrılan kredtin faizinin hədsiz dərəcədə yüksək (40-60 %) olması çoxlarını xalçaçılıqla məşğul olmaq fikrindən daşındırırdı [8,s.24]. Qəzada çalışan xalçaçıların cəmi 30,75 faizi yuna olan tələbatını (1 832 pud) öz təsərrüfatları hesabına ödəyə bilirdilər. Bütün qəzada il ərzində xalça istehsalına sərf edilən 5 958 pud yunun yerdə qalan hissəsini isə xalçaçılar ya yerli qoyunçulardan, ya da Bakı, Quba və digər şəhərlərdən alırdılar. Bu qədər yundan alınan 106,737 funt iplik daha çox qəzanın özündən əldə edilən bitki mənşəli boyaq vasitələri ilə müxtəlif rənglərə boyadılırdı[8,s.24]. Hər il Quba qəzasında 83 536 rubl dəyərində 5 009 ədəd xalça istehsal edilirdi. Bütün istehsal xərcləri çıxıldıqdan sonra xalçaçıların ümumi illik gəliri 34 204 rubl, və yaxud satış qiymətinin 40,9 faizini təşkil edirdi.

Hesabat müəllifi göstərirdi ki, Quba qəzasında xalça ticarəti tamamilə əksəriyyətini yəhudilər təşkil edən möhtəkirlərin əlində cəmləşmişdir. Onlar kustarların pula daimi ehtiyac hiss etmələrindən və öz məhsullarını yaxşı qiymətə satmaq üçün gözləmək imkanlarının olmamasından istifadə edərək kəndbəkənd gəzib xalça məmulatlarını çox ucuz qiymətə alıb Quba şəhərində yaşayan topdansatış ticarətlə məşğul olan yəhudi tacirlərə iki qat baha qiymətə satırdılar. Bu tacirlər isə hər il Quba qəzasından İstanbul şəhərinə 200 min rubl dəyərində xalça ixrac edirdilər[8,s.24].

QKK-nin əməkdaşları 1902-ci il ərzində Quba qəzasından başqa Cənubi Qafqazın xalçaçılığın yayıldğı daha 10 qəzasında araşdırmalar apardılar. Araşdırmaların gedişində Zəngəzur qəzasının 27, Şuşa qəzasının 23, Cəbrayıl qəzasının 18, Cavanşir qəzasının 14, Sürməli qəzasının 14, Şərur-Dərələyəz qəzasının 13, Yenibəyazid qəzasının 9, Üçmüədzin qəzasının 6, Naxçıvan qəzasının 5, Gümrü qəzasının 4 kəndində xalçaçılığın vəziyyətinə dair xeyli material toplandı[1,s.83; 4.vv.40-41]. Bununla belə, təssüflə qeyd etmək lazımdır ki, Azərbaycanın xalça məmulatı istehsalında üzünəməxsus yeri olan Qazax, Borçalı, Göyçay, Şamaxı, Abşeron və digər qəzalarda belə təhqiqatların aparılmasını təsdiq edən heç bir məlumata rast gəlmədik. Ola bilsin ki, QKK-nin fəaliyyətinin ilk illərində özünü aydın hiss etdirən kəskin maliyyə qıtlığı adları çəkilən xalçaçılıq mərkəzlərində belə araşdırılmaların aparılmasna imkan verməmişdi.

QKK-nin hesabatları Yelizavetpol quberniyasında da xalçaçılılğın ümumi vəziyyəti haqqında da aydın təsəvvür yaradır. Hesabatdan aydın olur ki, quberniyada hər il istehsal edilən 91 min pud yunun 37 min pudu xaricə ixrac edilir, yerdə qalan 54 min pud yun isə yerli kustarlar tərəfindən müxtəlif növ xalça məmulatı istehsalına sərf olunur. Quberniyada xalça istehsalının əsas mərkəzi Şuşa şəhəri və qəzası hesab edilirdi. Burada xalça məmulatı istehsalı ilə məşğul olan 1800 nəfər qadın tərəfindən il ərzində 160 000 rubl dəyərində xalça istehsal edilirdi. Bu xalçalar istər keyfiyyyətinə, istərsə də dəyərinə görə digər qəzalarda istehsal edilən xalçalar arasında birinci yerdə dururdular. Xalçaçıların gündəlik qazancı Quba qəzası ilə müqayisədə xeyli yüksək olub 22 qəpik təşkil edirdi. İstehsal edilən xalçanın əsas hissəsi təsadüfi alıcı üçün nəzərdə tutulurdu[2,vv.2,5] Təxminən 1905-ci ilə qədər tərtib edilmiş bu sənəddə (Cəbrayıl qəzası 1905-ci ildən sonra Qaryagin qəzası adlandırılmışdır–C.M.) Yelizavetpol quberniyasında xalçaçılıqla, orta hesabla 100 min nəfərin məşğul olması və onların ildə 1mln rubl dəyərində məhsul istehsal etdiyi göstərilir[2,v.6].

Bütün bunlara baxmayaraq, QKK-nin 1900-1903-cü illərdə apardığı araşdırmaların Cənubi Qafqazada, ilk növbədə azərbaycanlıların yaşadıqları bölgələrdə xalçaçılıq sənətinin ümumi vəziyyətini aydınlaşdırmaq baxımından çox böyük əhəhmiyyəti oldu. Əvvəla, bu araşdırmalar xalçaçılıq sənətinin kəndli təsərrüfatının əldə etdiy gəlirdə tutduğu mövqeyə xeyli aydınlıq gətirdi. Cavanşir və Cəbrayıl qəzalarının 32 kəndində xalçaçılıq işinin vəziyyətini tədqiq etmiş M.Qara-Murza belə nəticəyə gəlmişdi ki, bu qəzalarda xalça məmulatı istehsalı kəndli təsərrüfatının əsas gəlir mənbələrindən birini təşkil edir[6,v.14]. Komitənin fəal üzvlərindən A.S.Piralovun 1910-cu ilə aid hesabatında isə ayrı-ayrı qəzalarda kəndli təsərrüfatının illik gəlirində xalçaçılıqdan əldə edilən gəlirin miqdarı konkret rəqəmlərlə ifadə edilir. Bu hesabatdan aydın olur ki, Bakı quberniyasının

Quba qəzasında xalçaçılıqdan əldə edilən gəlir kəndli təsərrüfatının illik gəlirinin 49,9 faizini, İrəvan quberniyasının Sürməli, Üçmüədzin və Aleksandropol qəzasında 31 faizini, Yelizavetpol quberniyasının Şuşa, Zəngəzur və Qaryagin qəzalarında, habelə Bakı quberniyasının Cavad qəzasında 38 faizini təşkil edirdi[5, v. 132 ar].

QKK-nin araşdırmaları həm də onu göstərdi ki, xalça məmulatı istehsalında əmək məhsuldarlığının xeyli dərəcədə aşağı olması və bəzi hallarda hazır məhsulun tələb olunan standartlara cavab verməməmsi əsas toxuculuq dəzgahı olan hananın konstruksiyasındakı nöqsanlarla bağlıdır. Azərbaycanın demək olar ki, bütün xalçaçılıq bölgələrində istifadə edilən və yaşı az qala minilliklərlə ölçülən bu sadə dəzgah çox ucuz başa gəlir və asanlıqla istənilən yerdə quraşdırılırdı. Hana, adətən ağacdan hazırlanmış sadə düzbucaqlı dördbucaqlı olub iki qalın yan dirəkdən və ox adlandırılan iki nisbətən nazik çarpaz (köndələn) dirəkdən ibarət idi. Oxlar yan dirəklərə onların üzərində açılımış üçün dördbucaqlı deşiklər vasitəsilə birləşdirilir. Eyni dəzgahda müxtəlif ölçülü xalça toxumaq lazım gəldiyindən oxu yaxınlaşdırmaq və ya uzaqlaşdırmaq üçün deşiklərin sayını artırırdılar. Yuxarı ox yan dirəyə altına, aşağı ox isə üstünə bir cüt paz vurmaqla bərkidilirdi. Oxlar onların üzərinə əriş ipini dolamaq, yan dirəklər isə iş prosesində əriş iplərini bir-birindən eyni məsafədə saxlamaq vəzifəsini daşıyırd[7,s.4-5,21-22].

Lakin bu dəzgahlardada müşahidə edilən bir sıra nöqsanlar xalçaçılara heç də həmişə yüksək keyfiyyətli məhsul istehsal etməyə imkan vermirdi. Həmin nöqsanları öz gücləri ilə aradan qalfıra bilməyən bir çox xalçaçılar kömək üçün QKK-nə müraciət edirdilər. Bu müraciətləri nəzərə alan Komitə vəziyyətdən çıxmaq üçün əvvəlcə Sarayevo (Bosniya-Çernoqoriya) Şərq xalçaları emalatxanasında istifadə edilən toxuculuq dəzgahının nümunəsində yeni dəzgah hazırlamağa cəhd göstərdi. Lakin bu cəhd uğursuz oldu. Belə olduqda Komitə yerli hanaların əsas nöqsanlarını aradan qaldırmaq üçün yerli texniklərə müraciət etdi. Cənubi Qafqaz dəmiryolu idarəsinin baş emalatxanasının ustası K.X.Blyümberq göstərilən nöqsanları aradan qaldırmaq işini öhdəsinə götürdü və onu qısa müddət ərzində yeinə yetirdi[6,v.16 ar.].

K.X.Blyümberqin təkmilləşdirdiyi dəzgahın sınağı köhnə dəzgahla paralel şəkildə və yerli toxucuların iştirakı ilə 1904-cü il noyabrın 30-da başladı və təxminən bir aya qədər davam etdi. Aparılan sınaq göstərdi ki, Blyümberqin təkmilləşdirdiyi dəzgah ənənəvi dəzgahlarla müqayisədə bir sıra üstünlüklərə malikdir. Əvvəla, çarpaz dirəyi əvəz edən paralel şəkildə yerləşdirilən silindirik val əriş iplərinin paralelliyini tam təmin edirdi. Xalçanın toxunmuş hissəsinin asanlıqla tənzimlənməsi də vaxt itkisnin qarşısını alırdı. Ümumiyyətlə isə, Blyümberqi dəzgahı xalçaçı əməyinə 33 faiz qənaət etməklə toxuma prosesini asan və rahat həyata keçirməyə, xalçadakı əyriliyi aradan qaldırmağa, müasir bazarın tələbinə uyğun olaraq böyük ölçülü xalaçalar toxumağa imkan verirdi. Bu zaman toxucudan daha az fiziki güc və praktiki vərdiş tələb olunurdu. Ağac və dəmir hissələrdən ibarət olan dəzgahı çox asanlıqla istəniən yerdə quraşdırmaq mümkün idi[6,v.14]. Lakin Blyümberqin təkmilləşdirdiyi dəzgah, özünü aydın şəkildə göstərən bütün bu üstünlüklərinə baxmayaraq, demək olar ki, istifadə edilməmiş qaldı.

Ümumiyyətlə, QKK XX əsrin əvvəllərilndə Azərbaycanda xalçaçılıq sənətinin vəziyyətini öyrənmək istiqamətində çox böyük işlər gördü. Məzh bu işlər nəticəsində Azərbaycan tarixində ilk dəfə olaraq xalçaçılıq sənətinin yayılma arealı, inkişaf dinamikası, rentabelliyi, inkişafin qatşısını alan səbəblər və s. haqqında real məlumatlar əldə edildi. Aşkar edilən nöqsanlar isə gələcəkdə Azərbaycan xalçalarının dünya bazarının tələbatına uyğunlaşdırılmasında nühüm rol oynadı.

**İstifadə olunmuş ədəbiyyat siyahısı:**

1. Hacı Həsənov, Ramil Niftəliyev. Qafqaz Kustar Komitəsinin tarixindən. //Azərbaycan xalçaları. cild 8, № 25, c.83-89
2. ГИА РФ, ф.20, оп.15, д. 109,
3. ГИА РФ, ф.395 оп. 1, д. 302
4. ГИА РФ, ф.395, оп.1, д. 1247

5. ГИА РФ, ф.395, оп.1, д.1828
6. ГИА РФ, ф.395, оп. 1, д. 1393
7. Зедгенидзе Я. Производство ковров и паласов. //СМОМПК, вып. 11, Тифлис: Канцелярия Главноначальствующего гражданской части на Кавказе. 1891, с.1-79
8. Ковровый промысел в Кубинском уезде Бакинской губернии //Известия Министерства Земледелия и Государственных имуществ. № 2, 12-го января 1903 г., с.23-24
9. Новыя издания М-ва З. и Г. И //Известия Министерства Земледелия и Государственных имуществ. № 3, 19-го января 1903 г., с. 48-49
10. Пиралов А.С. Краткий очерк кустарных промыслов Кавказа. Санкт-Петербург: Типолитография «Якорь», 1913, 128 с.
11. Учреждение Кавказского кустарного комитета. //Известия Министерства Земледелия и Государственных имуществ. 25 ноября 1899 г., № 47, с. 724-725
12. Хатисов К.И. Кустарные промыслы Закавказского края. //Отчеты и исследования по кустарной промышленности В России. В 11-ти томах, Санкт-Петербург: Типография В.Киршбаума, т.2, 1894, с. 259-370